# "QARDAŞ ENERJİSİ"

*Azərbaycan Prezidentinin Türkiyəyə səfəri qardaş ölkə mediasının əsas manşet mövzusu oldu*

**Türkiyə-Azərbaycan əlaqələrinin mövcud səviyyəsi qardaşlığın, dostluğun rəmzi olaraq iki dövlətin həmrəyliyinin, birliyinin yüksək təzahürü sayılır. Strateji tərəfdaşlıq səviyyəsində olan münasibətlərin qorunması və inkişafı xalqlarımızın mənəvi sifarişidir. Azərbaycan-Türkiyə əlaqələrinin siyasi, iqtisadi və digər sahələr üzrə dinamik inkişafının davam etməsi böyük bir coğrafi məkanda proseslərin gedişinə müsbət təsir göstərir. Təbii ki, münasibətlərin neçə qaydada formalaşmasında liderlərin də xüsusi rolu var.**























































Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyevin qardaş ölkəyə növbəti işgüzar səfəri, Ankarada İğdır-Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılış mərasimində iştirak etməsi həmişə olduğu kimi, böyük maraq və rəğbətlə qarşılanıb.

Səfər qardaş ölkənin bir neçə yüz minlik tirajlı qəzetlərinin əsas manşet mövzusuna çevrilib. Teleşirkətlər isə həmin hadisəni canlı yayımlar vasitəsilə izləyicilərə göstəriblər. Onlardan bəzilərini oxucuların diqqətinə çatdırırıq:

"Sabah" qəzeti "Türk dünyasına strateji xətt" adlı xəbəri manşetdən verib. Bildirilib ki, siyasi, iqtisadi, ticari, elm, təhsil, mədəniyyət və digər sahələr üzrə ikitərəfli əməkdaşlığın bundan sonra da çevik inkişafı Azərbaycan və Türkiyəyə yeni-yeni uğurlar vəd edir. Azərbaycan Prezidentinin fikirlərinə geniş yer ayrılan məqalədə qeyd olunub ki, bu gün Türkiyə və Azərbaycan - iki qardaş ölkə nəhəng layihələr reallaşdırır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP kimi neft-qaz boru xətləri layihələri nəinki ölkələrimizi birləşdirdi, eyni zamanda Avrasiyanın enerji xəritəsini dəyişdirdi. Bu gün Türkiyə ərazisindən gedən Azərbaycan qazı bir çox Avropa ölkəsinin enerji təhlükəsizliyini təmin edir. Keçən il Azərbaycanın qaz ixracatı 25 milyard kubmetrə çatmışdır. Onun təxminən yarısı Türkiyəyə olan ixracatdır və Türkiyədən başqa da 11 ölkə, onlardan 10 Avropa ölkəsi Azərbaycan qazını alaraq öz enerji təhlükəsizliyini gücləndirir.

"Takvim" qəzetinin "Qardaş enerjisi" başlıqlı xəbərində qeyd edilib ki, ölkələr arasındakı münasibətlər müdafiədən ticarətə qədər çox geniş sahədə daim inkişaf edir. Enerji sektorunda Bakı-Tbilisi-Ceyhan xam neft boru kəməri kimi, "Şahdəniz" yatağının və Bakı-Tbilisi-Ərzurum təbii qaz boru kəmərinin istismara verilməsi ilə ölkələr arasında enerji əməkdaşlığı daha da yüksəlib: "Anadoludan keçən təbii qaz boru kəməri - TANAP vasitəsilə böyük miqdarda Azərbaycan qazının Avropaya çatdırılmasının sevincini yaşayırıq. Bu sahədə strateji və qeyri-adi layihələri həyata keçirməkdə Can Azərbaycan ilə tam uzlaşma içərisindəyik".

Qeyd olunur ki, Türkiyə və Azərbaycan Avrasiyanın enerji xəritəsini yenidən tərtib edib. Bununla Azərbaycan Türkiyədə ən böyük investora çevrilir.

"Türkiyə" qəzetinin "Türk dünyasına enerji körpüsü" başlıqlı xəbərində isə bildirilib ki, İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan mətbuata verdikləri açıqlamalarla bir sıra maraqlı məqamları diqqətə çatdırıblar. Prezident İlham Əliyevin "Bu gün açılışında iştirak etdiyimiz layihə Naxçıvanın enerji təhlükəsizliyini təmin edəcək. Çünki Azərbaycandan gələn qaz Türkiyə ərazisindən svop şəklində Naxçıvana ötürülərək, artıq Naxçıvanı da bu problemdən xilas etmiş olacaqdır" fikirlərinə toxunaraq qeyd edilib ki, birgə həyata keçirilən enerji layihələri nəqliyyat layihələrinin reallaşmasına da imkan verdi. Türkiyəni Azərbaycanla birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu çox gözəl üstünlüklər təmin edir. Türk dünyasının birləşdirmək üçün bu nəqliyyat bağlantısının çox böyük mənası, çox böyük faydası var və təbii olaraq, Türkiyə ilə Azərbaycan arasındakı birlik, qardaşlıq bütün türk dünyasına böyük bir töhfədir.

Bundan başqa, qəzetlərdən "Hürriyət", "Yeni Akit", "Yeni Birlik", "Yeni Şafak", "Akşam", "Posta", "Diriliş Postası" və "Türkgün", habelə "Anadolu" Xəbər Agentliyi, "TRTHaber", "AHaber", "NTV", "CNN Türk" kanallarında və bir çox xəbər agentliyində dərc edilən və göstərilən xəbərlərdə də İlham Əliyevin Türkiyəyə səfəri xüsusi olaraq qeyd edilib. Bildirilib ki, Azərbaycan-Türkiyə qardaşlığı, dostluğu və strateji müttəfiqliyi sarsılmaz və əbədidir. Azərbaycan Prezidenti isə Türkiyənin ən yaxın və səmimi dostudur.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.- 7 mart (№51).- S.7.